BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2015*

UOT 94/479.34

# 1917-1918-ci İLLƏRDƏ BAKIDA BOLŞEVİK REJİMİ QURULMASININ MÜASİR AZƏRBAYCAN TARİX ELMİNDƏ ƏKSİ

**V.Ş.ABIŞOV**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***www.vaqif.abishov1955@gmal.com***

*Məqalənin yazılmasında əsas məqsəd XXI əsr müasir Azərbaycan tarix elmində problemin araşdırılma vəziyyətini təhlil etməkdən ibarətdir.*

**Açar sözlər:** Azərbaycan, A.Q. Balayev, N.L.Nəsibzadə, C.P.Həsənli, E.R.İsmayılov

1991-ci ildə öz müstəqilliyini bərpa edən Azərbaycan dövləti 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olduğunu elan edərək gərgin ictimai-siyasi və hərbi şəraitdə milli-mənəvi dəyərlərin qorunması üçün çox mühüm addımlar atmış oldu. Sovet tarixşünaslığından fərqli olaraq tarixi fakt və hadisələrə tarixçilik, obyektiv və dəyərləndirmə prinsiplərindən, rasional düşüncə istiqamətindən yanaşan müasir Azərbaycan tarixşünaslığında tariximizin ağ səhifələri elmi-nəzəri baxımdan yenidən işlənilməyə başlanıldı və bu sahədə iş davamlı olaraq indi də aparılmaqdadır.

Sovet sisteminin dağılması ilə ideoloji tələblərin aradan qalxması, 70 il arxivlərdə gizli saxlanılan və yazılması yasaq olunan sənədlərin tədqiqatçıların ixtiyarına verilməsi problemə - mövzuya yeni elmi yanaşmanı zəruri etmişdir.

Məqalə hazırlanarkən "Azərbaycan inqilab komitəsi və Xalq komissarları Soveti iclaslarının protokolları" (1) adlı sənədlər toplusundan, o cümlədən Azərbaycan tarixçilərindən A.Q.Balayev, H.Ə.Həsənov, N.L.Nəsibzadə, X.M.Məmmədov, İ.S.Bağırova, T.Ə.Əzizov, A.Z.İbrahimova və başqa müəlliflərin elmi-tədqiqat əsərlərindən istifadə edilməsi mövzunun ayrı-ayrı məqamlarına aydınlıq gətirilməsi baxımından əhəmiyyətli olmuşdur.

A.Q.Balayevin "1917-1920-ci illərdə Azərbaycan milli-demokratik hərəkatı" adlı əsərində 1917-ci ilin fevral inqilabından sonra Azərbaycanda başlanan milli-azadlıq hərəkatının mərhələlərini, Azərbaycan Demokratik Respublikasının qurulmasını, onun gördüyü ilk tədbirləri, "Müsavat" partiyasının siyasi fəaliyyəti, Bakı Soveti və Bakı Kommunası haqqında məsələlər

təhlil edilir. Müəllif əsas diqqəti mart ayında Müsəlman Milli Şurasının yaranmasına, aprel ayında Ümumqafqaz müsəlmanlarının Bakı qurultayına, may ayının 1-dən 11-nə kimi I Ümumrusiya müsəlmanlarının Moskvada keçirilmiş qurultayına və "Müsavat" partiyasının fəaliyyətinə verib (2). 1917-ci ilin martından noyabrın 2-dək Bakı Sovetində üstünlüyü ələ keçirmək uğrunda partiyalar arasında gedən mübarizəni geniş şərh etməyən müəllif, noyabrın 2-də genişləndirilmiş Bakı Soveti iclasında bolşeviklərin şəhərdə Bakı Sovetini ali hakimiyyət elan etmələrinə nail olduqları yazır (2, 13).

A.Q.Balayevin1998-ci ildə yazmış olduğu "1917-1918-ci illərdə Azərbaycan milli hərəkatı" adlı əsərində bəhs olunan dövrdə baş vermiş hadisələr daha geniş təhlil olunur (3). Fevral inqilabından sonra siyasi vəziyyətin aktivləşməsindən və aprel-may aylarında Bakı və Moskvada keçirilmiş müsəlmanların qurultaylarından bəhs edən A.Q.Balayev, Azərbaycanın milli təşkilatları və nümayəndələri ilə menşevik və eserlərin "inqilabi-demokratik" partiyasının nümayəndələri arasında münasibətlərin daha da kəskinləşdiyini qeyd edir (3, 39-40).

Noyabrın 12-də Bakı Soveti İctimai Təhlükəsizlik Komitəsinin buraxılması haqqında qərar çıxarmasını "Müsavat"ın dəstək verməsilə əlaqələndirən (3, 14) A.Q.Balayev, bu cür vəziyyətin yaranmasının öz məntiqi olduğunu və siyasi vəziyyətin şərtləri bunu diqtə etdiyini göstərir. Daha sonra müəllif tərkibi, əsasən, menşevik və eserlərdən ibarət olan İctimai Təhlükəsizlik Komitəsinin buraxılmasına "Müsavat"ın razılıq verməsinin səbəblərini göstərir. Belə ki, menşevik və eserlər "vahid və bölünməz Rusiya" ideyasını təbliğ edirdi, daşnaklar isə öz millətçilik siyasətlərini azərbaycanlılara qarşı yönəlmişdilər. Bolşeviklər isə millətlərə ta ayrılmağa qədər öz müqəddəratlarını təyin etmə hüququ verən yeganə partiya idi (3, 15). "Müsavat"ın liderləri isə belə ümid edirdilər ki, bolşeviklər öz sözlərinə sadiq qalacaqlar və Azərbaycana öz müqəddəratını təyinetmə hüququ verəcəklər. Lakin siyasi mübarizənin sonrakı gedişində bu ümidlər tamamilə yox olub getdi. Xalq Komissarları Sovetinin sədri V.İ.Lenin və Milli İşlər üzrə Xalq Komissarı İ.V.Stalinin 1917-ci il noyabrın 2-də imzaladıqları "Rusiya xalqlarının hüquq bəyannaməsi"ndə və 20 noyabrda imzaladıqları "Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə" müraciətində Şərqin müsəlman xalqlarına verilmiş təntənəli vədlərin əslində riyakarlıq, yalan və aldatmaqdan başqa bir şey olmadığını tarix özü sübut etdi (1, 5). Bolşeviklər "xalqların öz müqəddəratını təyin etmək hüququ" haqqında dekret qəbul etdilərsə də, sonralar Stalin bəyan etdi ki, bu məsələ ancaq "xalqın sosializmi seçməsi" şərtilə həyata keçirilə bilər (4, 15). N.L.Nəsibzadə isə RSFSR hökumətinin qəbul etdiyi sənədlərin Cənubi Qafqazdakı milli qüvvələrə əvvəllər müsbət təsir etdiyini, lakin hakimiyyəti qeyri-qanuni yolla ələ keçirdikləri üçün yeni sovet hökuməti burada qəbul edilmədiyini qeyd edir (5, 27).

N.L.Nəsibzadə 1917-ci ildə Bakıda üç siyasi qüvvənin mövcudluğunu önə çəkərək onların içərisində ən güclü qüvvə Mərkəzi İctimai Təşkilatların

icraiyyə komitələri olduğunu, milli şuraların bələdiyyə idarələri ilə birlikdə şəhərlərin idarəsində böyük rol oynadıqlarını və Bakıda başqa şəhərlərdən fərqli olaraq nisbətən güclü sovetin mövcudluğunu göstərir (5, 25).

N.L.Nəsibzadənin əsərində Cənubi Qafqaz Komissarlığının yaranması və bu qurumun Türkiyə ilə münasibəti, Brest-Litovski sülh müqaviləsi, 1918-ci il mart qırğını və ümumiyyətlə, bu bölgədə gedən proseslər haqqında ətraflı və sistemli məlumatlar verilmişdi.

X.M.Məmmədovun "Azərbaycan milli hərəkatı (1875-1918-ci illər)" adlı əsərində Azərbaycanda yaranan və fəaliyyət göstərən siyasi təşkilatlardan, onların siyasi mübarizəsindən, fevral inqilabından sonra Bakıda bolşeviklərin siyasi fəaliyyətindən, Qafqaz və ümumrusiya müsəlmanlarının qurultayından bəhs olunur. Müəllif Sovet siyasi ideologiyasının təsiri və birbaşa diqtəsilə formalaşan Azərbaycan tarixşünaslığını uzun illər elmi obyektivlikdən uzaq olan, xalqın tarixini saxtalaşdıran, birtərəfli qiymətləndirən və bu istiqamətdə fəaliyyət göstərən bir tarixşünaslıq adlandırmışdır (6, 3). X.M.Məmmədov Oktyabr inqilabından sonra Qafqazın sovetləşdirilməsi problemi Rusiya bolşeviklərinin qarşısında duran aktual məsələlərdən biri olduğunu,1917-ci il noyabr ayının 2-də Bakıda sovet hakimiyyətinin elan olunduğunu və "Bakıda hakimiyyətə şəriksiz yiyələnmiş olan bolşevik daşnak birləşmələri 1918-ci il aprel ayının 25-də Bakı Xalq Komissarları Sovetini yaratdılar" cümləsini yazmaqla kifayətlənmişdir (6, 150).

İ.S.Bağırova "XX əsrin əvvəllərində Azərbaycanda siyasi partiyalar və təşkilatlar..." adlı əsərində isə 1917-ci ilin fevral inqilabından sonra Azərbaycanda yaranmış və ya öz fəaliyyətlərini yenidən bərpa etmiş partiyaların fəaliyyətini geniş təhlil edir və İctimai Təşkilatların İcraiyyə Komitəsini, fəhlə deputatlar Sovetinin yaranmasını fevral inqilabının ilk günlərində mitinq və nümayişlərin nəticəsi kimi göstərir (7, 305).

1917-ci il fevral inqilabından sonra Bakıda aktiv fəaliyyət göstərən partiyalardan ilk olaraq kadetlər partiyasını göstərən İ.S.Bağırovanın fikrincə, bu partiya üçün ən qorxulu ikihakimiyyətlilik idi. Müəllif kadetlərin sosial bazadan məhrum olmasını sosialist və milli partiyaların nüfuzunun artması ilə əlaqələndirir və Saratov sürgünündən qayıdan Şaumyanın yeni yaranmış fəhlə deputatlar Sovetinə qiyabı sədr seçilməsini onun sosialistlər arasında şəxsən yaxşı tanınmasının nəticəsi kimi qiymətləndirir (7, 305).

T.Əzizov 1901-1920-ci illərdə Azərbaycanın iqtisadi-sosial, siyasi həyatından və mədəniyyətindən bəhs edən əsərində Bakıda hakimiyyətin Sovetin əlinə keçməsini oktyabrın 31-i deyil, noyabrın 2-də baş verdiyini göstərir. Bununla bağlı müəllif yazır: "1917-ci ilin oktyabrında bolşeviklər Rusiyada hakimiyyəti ələ aldıqdan sonra, noyabrın 2-də Bakı fəhlə deputatları Sovetinin Bakı hərbi deputatları Soveti ilə birgə iclasında Sovetin İcraiyyə Komitəsi Bakı şəhərində və Bakı rayonunda ali hakimiyyət orqanı elan edildi. Bu iclasda, "həmçinin Bakı fəhlə deputatları Soveti ilə Bakı hərbi deputatları Sovetini birləşdirərək, onu Bakı fəhlə və əsgər deputatları Soveti adlandırmaq qərara

alındı" (8, 146).

Bakıda yaranmış ikihakimiyyətlilik məsələsinə də toxunan T.Əzizov Sovetdə S.Şaumyanın rəhbərlik etdiyi bolşevikləri başlıca qüvvə hesab etməklə yanaşı, burada daşnaklar, eserlər və menşeviklərin də təmsil olunduğunu göstərir (8, 151). Lakin 1917-1918-ci illərdə bolşeviklər heç vaxt Sovetdə çoxluqda olmamışdılar. Hətta bolşeviklər Sovetin rəhbərliyində olduqları vaxtlarda, yəni 1917-ci il noyabrın 2-dən 1918-ci il iyulun 25-dək Sovetin üzvlərinin əksəriyyəti eser-menşeviklərə məxsus idi və qanunların qəbul olunmasında onların səsi həlledici olmuşdur.

T.Ə.Əzizov da sovet tarixçilərinin "Mart hadisələrindən sonra Bakıda bolşeviklərin hakimiyyəti möhkəmləndi" fikri ilə razılaşır və 1918-ci il aprelin 25-də Bakı quberniyası Xalq Komissarları Soveti yaradıldıqdan sonra onun tərkibinə iki nəfər azərbaycanlı komissar-şəhər təsərrüfatı komissarı bolşevik N.Nərimanov və torpaq komissarı sol eser M.Vəzirovun olduğunu qeyd edir, (8, 157) lakin quberniya komissarı Məşədi Əzizbəyovun adını çəkmir.

Yeddicildlik "Azərbaycan tarixi"nin V cildində 1917-ci il fevral inqilabından sonra "Bakıda İctimai Təşkilatların İcraiyyə Komitəsi və Fəhlə və Əsgər Deputatları Soveti adlı iki hakimiyyət orqanının yarandığını və bunlardan nisbətən nüfuzlusu Bakı Soveti hesab edildiyi göstərilir (9, 287).

R.A.Hüseynov və X.Y.Verdiyevanın birgə yazdıqları "Azərbaycan tarixi" adlı kitab Azərbaycanın qədim dövründən başlamış ta 1920-ci illər də daxil olmaqla böyük bir dövrü əhatə edir. Kitabın "Oktyabr çevrilişi və Şimali Azərbaycan" adlı paraqrafı "1917-ci il 25 oktyabrda Petroqradda hakimiyyətin bolşeviklərin əlinə keçməsi" ilə başlayır (10, 121). Müəlliflər 1918-ci il mayın 28-dən sonra Şimali Azərbaycanda iki hakimiyyət - "Musavat" partiyasının lider hesab olunduğu, milli və vətənpərvər qüvvələrin qurduğu demokratik, digəri isə Sovet Rusiyasının tərəfdarı olan bolşevik hakimiyyəti olduğu göstərilir (10, 138).

C.P.Həsənli 1917-ci il 25 oktyabr çevrilişindən sonrakı hadisələri belə şərh edir: "1917-ci ilin oktyabr çevrilişi xalqların milli müstəqilliyə olan ümidlərini daha da artırdı. Bu ümidlər xeyli dərəcədə bolşeviklərin ilk günlərdə elan etdikləri bəyannamələrdən qidalanırdı. Sülh haqqında Dekret, habelə "Rusiya xalqlarının hüquq bəyannaməsi", "Rusiyanın və Şərqin müsəlman zəhmətkeşlərinə" müraciətnaməsi ilk addım kimi keçmiş imperiyaya daxil olan xalqların azad surətdə ayrılıb öz müstəqil dövlətlərini yaratmaq üçün hüquqi təminat verirdi. Lakin az sonra məlum oldu ki, bu sənədlər real əməli addımlardan uzaq olub, daha çox təbliğat xarakteri daşıyır" (11, 23).

Müəllif 1918-ci ilin mart qətliamlarının həyata keçirilməsini Sovet Rusiyasının və bütövlükdə bolşeviklərin Azərbaycana münasibətinin təzahür forması olduğunu qeyd edir və "bu hadisələrə, əsasən, ermənilərdən ibarət olan Bakı bolşeviklərinin Azərbaycanda hakimiyyəti ələ keçirməsi kimi deyil, Sovet Rusiyasının yeritdiyi təcavüzkarlıq siyasətinin tərkib hissəsi kimi baxılmalı olduğu fikrini ortaya qoyur (11, 55).

Problemlə əlaqədar olaraq müstəqillik dövründə yazılmış əsərlər içərisində A.Z.İbrahimovanın "Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi (1917-1918-ci illər)" adlı əsəri də qeyd olunmalıdır.

A.Z.İbrahimova 1917-ci ilin fevral inqilabından sonra "Bakıda biri burjua hakimiyyəti, yəni Rusiyada yaranan Müvəqqəti hökumətin Bakı nümayəndəliyi – İctimai Təşkilatların İcraiyyə Komitəsi (İTİK), digəri isə Rusiya Sovet hökumətinin nümayəndəliyi olan Bakı Soveti olduğunu" göstərir (12, 45). Lakin burada müəllifin yazdığı kimi, "Bakı Soveti Rusiya Sovet hökumətinin nümayəndəliyi"dir fikri ilə tam razılaşmaq olmaz. Çünki Bakı Sovetinin tərkibindəki çoxluğu menşevik-eser və daşnaklara məxsus olduğu və bolşeviklərin azlıqda olduğu halda, necə demək olar ki, bu orqan Sovet Rusiyasını müdafiə edirdi. Əgər müəllif, bu fikri 1917-ci ilin noyabrın 2-də Bakı Sovetində rəhbərliyini bolşeviklər tərəfindən ələ alandan sonra desəydi, onda bununla qismən razılaşmaq olardı.

31 oktyabr və 2 noyabr tarixli Bakı Sovetinin iclasları bolşeviklərin qələbəsinin ilkin mərhələsini kimi qiymətləndirən (12, 110) A.Z.İbrahimova, noyabrın 2-də Bakı Sovetinin iclasında bolşevik qətnaməsinin qəbul edilməsinin qanuniliyini şübhə altına alır. Onun fikrincə Bakı Sovetinin eser-menşevik-daşnak deputat çoxluğu ... iclası tərk etdikdən sonra Sovetdə qərar qəbul olunması üçün yetərsay yox idi (12, 111).

E.R.İsmayılov 1917-ci ilin martında yaradılmış Fəhlə deputatları Sovetinin sədri Şaumyanın seçilməsi məsələsinə sovet tarixçilərindən fərqli yanaşmışdır. Sovet tarixçiləri Şaumyanın Sovetin sədri seçilməsini onun şəxsi nüfuzu ilə əlaqələndirmişdilər. E.İsmayılov isə yazır ki, Sovetin tərkibindəki deputatların böyük bir hissəsi sosialist-inqilabçılar (eserlər) partiyasının və RSDFP-nin (menşeviklər) nümayəndələrindən ibarət idi (13, 157). Bu partiyalar arasında Sovetdə liderlik etmək uğrunda ciddi mübarizə gedirdi. Sovetə sədrlik vəzifəsinə namizədlik ortaya çıxanda partiyaların fraksiyaları arasında bu məsələdə bir-birlərinə güzəştə getmək istəmirdilər. Bolşeviklərlə menşeviklər uzun müddət bir partiyada olduğuna görə menşeviklər Şaumyanın namizədliyini irəli sürmüşdülər (13, 158).

Beləliklə, yeni arxiv sənədləri, dövri ədəbiyyat, mühacir və qərb tarixşünaslığından istifadə edən üçüncü Respublika tarixçilərinin yazmış olduqları çoxsaylı elmi tədqiqat əsərləri 1917-1918-ci illərdə Bakıda bolşevik rejiminin qurulması mövzusunun obyektiv təhlil edilməsinə şərait yaratmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan inqilab komitəsi və Xalq komissarları Soveti iclaslarının protokolları. Bakı: Çaşıoğlu, 2009, 554 s.
2. Балаев А.Г. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку: Элм, 1990, 95 с
3. Балаев А.Г. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку: Элм, 1998, 280 с.

4. Həsənov H.Ə. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı: Elm, 2005, 248 s.
5. Nəsibzadə N.L. Azərbaycan xarici siyasəti (1918-1920). Bakı: Ay-Ulduz, 1996, 216 s.
6. Məmmədov X.M. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər). Bakı: Sabah, 1996, 174 s.
7. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917. Баку: Элм, 1997, 335 с.
8. Əzizov T.Ə. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: Zaman, 1997, 256 s.
9. Azərbaycan tarixi. 7 cilddə, V c., Bakı: Elm, 2001, 672 s.
10. Гусейнов Р.А., Вердиева Х.Я. История Азербайджана. Баку: Озан, 2000, 180 с.
11. Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı: Garısma MMC, 2009, 576 s.
12. İbrahimova A.Z. Azərbaycanda ictimai-siaysi qüvvələrin mübarizəsi (1917-1918-ci illər). Bakı: Elm, 2010, 208 s.
13. Исмаилов Э.Р. Степан Шаумян – Обреченный на забвение. Портрет “легендарного коммунара” без ретуши. Баку: Şərq-Qərb, 2012, 448 с.

## ОТРАЖЕНИЕ УСТАНОВЛЕНИЯ БОЛЬШЕВИСТСКОГО РЕЖИМА В БАКУ В 1917-1918 ГГ. В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ИСТОРИИ НАУКИ

**В.Ш.АБЫШОВ**

### РЕЗЮМЕ

Основной целью статьи является анализ степени изученности обозначенной проблемы в современной азербайджанской истории науки XXI века.

Азербайджан, восстановивший в 1991 году свою независимость, объявив о своей политической преемственности в отношении Первой Республики, то есть Азербайджанской Демократической Республики, в обстановке общественно-политической и военной напряжённости предпринял ряд важных шагов для сохранности национально-духовных ценностей. В отличие от советской историографии, в азербайджанской историографии, где подход к историческим фактам и событиям осуществлялся на основе принципов объективной оценки и рационального мышления, белые пятна нашей истории начали заново пересматриваться с научно-теоретической точки зрения, и работа в этом направлении ведётся и поныне.

При подготовке статьи особую значимость, с точки зрения прояснения различных отдельных аспектов указанной темы, имели исследовательские труды азербайджанских историков А.Г.Балаева, Г.А.Гасанова, Н.Л.Насибзаде, Х.М.Мамедова, И.С.Багирова, Т.А.Азизова и А.З.Ибрагимова.

**Ключевые слова:** Азербайджан, А.Г.Балаев, Н.Л.Насибзаде, Дж. П.Гасанли, Э.Р.Исмаилов, А.З.Ибрагимова

**THE REFLECTION OF THE ESTABLISHMENT OF THE BOLSHEVIK REGIME IN BAKU IN 1917-1918 YEARS IN THE SCIENCE OF HISTORY IN AZERBAIJAN**

**V.Sh.ABISHOV**

**SUMMARY**

The main purpose of the article is to analyze the state of investigation of the problem in the XXI century modern history science of Azerbaijan.

Azerbaijan, which regained its independence in 1991, by declaring that it is the political successor of the First Republic existed in 1918-1920, that is the Azerbaijan People's Republic took very important steps for the protection of national and moral values in intense public, political and military conditions. Unlike the Soviet historiography, in the modern historiography of Azerbaijan, approaching historical facts and events from the historical point of view, objective assessment of the principles and from the direction of the rational thinking has re-started and developed the scientific work on white pages in the history of Azerbaijan and is now being carried out in this area.

The use of the Azerbaijani historians A.G.Balayev's, H.A.Hasanov's, N.L.Nasibzadeh's, Kh.M.Mammadov's, I.S.Bagirova's, T.A.Azizov's and A.Z.Ibrahimova's research works was important in writing of the article and in clarifying some points of the subject.

**Key words:** Azerbaijan, A.G.Balayev, N.L.Nasibzadeh, J.P.Hasanli, E.R.Ismayilov, A.Z.Ibrahimova